

# Migel Ernandes

XX əsr ispan ədəbiyyatının tanınmış şairi Migel Ernandes 1910-cu ildə İspaniyanın Alikante vilayətinin Orihuelada bölgəsində çoban ailəsində dünyaya göz açıb. 1918-ci ildə Amor de Dios məktəbində orta təhsil alsa da, 1923-cü ildə təhsilini bakalavr olaraq Santo Dominqo kollecində davam etdirir. 1925-ci ildə kolleci tərk edib çobanlığa başlayır və ilk şeirlərini qələmə alır. Madriddə çap olunan şeirləri maraqla qarşılandığından ora dəvət alsa da, bir ildən sonra yenidən Orihueldaya qayıdır.

1933-cü ildə "Perito en lunas" (Ay mütəxəsisi) adlı ilk kitabı çap olunur. Tez bir zamanda şöhrətlənən gənc şair Kartaqena Universitetində mühazirələr oxuyur, nüfuzlu jurnallarla əməkdaşlıq edir. Universitetdə dərs demək hüququ qazanır və bundan sonra yenidən Madridə qayıdıb iş tapmaq istəyir. Burada məşhur "27-ci nəsl"in nümayəndəsi, azadlıqsevər rəssam Maruxa Mayo ilə sevgi həyatı yaşayır, Visente Alexandre və Pablo Neruda ilə dostlaşır. Bundan sonra onun şeirlərində sosial və ictimai mövzular yer almağa başlayır, o, hər cür haqsızılığa etiraz edir.

Vətəndaş müharibəsi dönəmində respublikaçıların tərəfindən çıxış edir, ordu tərkibində döyüşlərdə vuruşur. Müharibənin qızğın vaxtında Josefina Manresa ilə evlənmək üçün Orihueldaya geri dönür. 1937-ci ilin qışında Madrid və Valnciyada keçirilən 2-ci Beynəlxalq Antifaşist Yazarlar Konqresinə qatılır. Həmin ilin aprelində general Franko müharibənin bitdiyini elan edir. Valensiyada yeni kitabını çap etdirmək istəsə də Frankonun Nəzarət Komissiyası kitabı məhv edir. Şair Valensiyadan Sevilyaya getmək istəyərkən, yolda həbs olunur, lakin Pablo Nerudanın sayəsində azad edilir, Orihueldaya qaydır. Burada yenidən tutulur, 1940-cı ildə edam olunmasına qərar verirlər. Dostlarının etirazı sayəsində qərar dəyişilir və müxtəlif həbsxanalarda cəza çəkməli olur. Bir neçə həbsxana dəyişən, məhrumiyyət və təzyiqlərə məruz qalan şair əvvəlcə bronxitə, sonra yatalağa, daha sonra isə vərəm xəstəliyinə düçar olur. 1942-ci il martın 28-də, 31 yaşında Alikante həbsxanasında dünyasını dəyişir.

Sağlığında 7 şeir kitabı və 5 dram əsəri çap olunub.

Ədəbi tənqidçilər onun əsərlərini yüksək qiymətləndirib, yenilikçi, mübariz və cəsarətli poeziyasının müasirlərinə və sonrakı nəsillərə təsir etdiyini qeyd ediblər.

Şairin şeirlərini inspan dilindən tərcümə edərək təqdim edirəm:

**Səxavət Sahil**